# Ana oğul böyütmüşdü...

**Ələkbər İsgəndər oğlu Ələsgərov 1998-ci il sentyabr ayının 3-də Bakı şəhərində anadan olub. 2015-ci ildə Mikayıl Müşfiq adına 18 saylı məktəbi bitirib. Həmin il Azərbaycan dənizçilik kollecinə daxil olduqdan sonra müddətli həqiqi hərb keçib. Vətən müharibəsinin ilk günlərindən döyüşlərə qatılıb.**

2020-ci il oktyabrın 1-də Füzulinin Alxanlı kəndi uğrunda qəhrəmancasına şəhid olub. Hökməli qəbiristanlığında dəfn edilib. Hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

"Ələkbər biz evlənəndən 17 il sonra doğulub. 22 yaşında itirdik onu... Hər işində dəstək olmağa çalışırdım". Ələkbər Ələsgərovun atası İsgəndər Ələsgərov belə deyir. Ardını gətirə bilmir, "Qoy anası danışsın". Sveta Ağayeva bildirir: – Ələkbər, eləcə də qardaşı uşaqlıqdan əsgər paltarı geyinməyi xoşlayırdılar, taxtadan tapança düzəldirdilər. Ələkbər həmişə əlini kürəyimə vurub deyirdi ki, görərsən, necə oğlanlar böyütmüsən, torpaqlarımızı biz alacağıq. Nə qədər desəm də ki, torpaqlar sülh yolu ilə alınacaq, dediyindən dönmürdü. Deyirdi, şəhid olsam, Çingiz Mustafayevin "Ana, mən şəhid oldum" mahnısını qoyub qulaq asarsan. Dediyi oldu. Sanki oğlum şəhid olmaq üçün yaşamışdı.

Sveta Ağayeva danışır ki, Horadiz tərəfdəki hərbi hissədə xidmət etmiş Ələkbər general-mayor Polad Həşimov həlak olandan sonra könüllü olaraq orduya yazılıb: – Sentyabrın 21-i telefonuna zəng gəldi ki, hərbi komissarlıqda olmalısan. Mən ona nə sarıldım, nə də görüşdüm.



Dedi, təlimə gedib qayıdacam. Amma son gedişi oldu... Cəmi 2 dəfə zəng vurdu, Füzulidə olduğunu dedi. Soruşurduq necəsən, bizim qorxmamağımız üçün düzünü demirdi. Amma atışma səslərini eşidirdim. Oktyabrın 1-də zəng gəldi, Ələkbərin anası olub-olmadığımı soruşdular və heç nə demədən dəstəyi asdılar. Başa düşdüm ki, pis bir şey olub. Sonra evə polis gəldi, onun arxasınca çıxanda küçədə böyük bir izdiham gördüm. Hər şey aydın idi, oğlum şəhid olmuşdu…

***Müşfiq CƏFƏROV***
***XQ***

Xalq qəzeti.- 2025.- 2 oktyabr, №211.- S.13.